

SEVİL İŞIQ

## Havada ayrılıq qoxusu qalıb...

Saçında sığala yatmayır əlim,
Saçında yad qızın yuxusu qalıb.
"Ayrılıq"mı töküb gəldin görüşə?!
Havada ayrılıq qoxusu qalıb.

İndi bəhanələr qəpik-quruşluq,
Üst-üstə yığsan da bir dəyər etməz.
Xırdanın nəyini xırdalıyım ki...
Cavab bir cümlədi, sevənlər getməz!

Sənə haqq verməyin haqsızlıqları,
Xəzan küləyində yarpağa bənzər.
Ay mənə xoşbəxtlik verib alanım,
Sevginin özü də torpağa bənzər.

Bu ürək dediyin nə kövrək imiş
Sevəndə ağlayır, sevmir ağlayır.
Heç özü də bilmir istədiyini...
Gedəndə ağlayır, getmir ağlayır.

## Günah ləkəsi...

Ayrılıq qapıya gəlməsin deyə...
Bölmək istəmirdik çörəyimizi.
Sözündə durmayan namərd deyərdin,
Necə bölə bildin ürəyimizi?!

Getdin... gedişinlə yanan insanın,
Tüstüsü gözünü yandırmadımı?
Kişi sözlərinin kişisizliyi,
Tanrı qarşısında çox olmadımı?

Demək belə olur güvənli dağlar,
Üstünə qar, yağış yağa da bilir.
Unudub hər şeyi çıxıb gedənlər,
Dönüb gələcəyə baxa da bilir.

Başını yastığa qoyduğun günü,
Vicdanın üzünə tüpürmədimi?
Saçımda sığala yatan əllərin,
Özünü bir anlıq itirmədimi?

Sənə ürəyimi halal edərdim,
Halal ürəyimin haram tikəsi.
Bir qızın ahını alıb getmisən...
Günahdan getməyir günah ləkəsi.

## Qadın...

Hərəyə bir ulduz asar özündən,
Günəşdən don geyər, sarısı olar.
Gülməkdən dodağı çat verən qadın,
Gecələr "Kərəm"in yarısı olar.

Sərin yaz yağışı libasındadı...
Yağsa da soyuğu dondura bilməz.
Qadınlar sevginin mələkləridi...
Hər adam qəlbinə qondura bilməz.

Döyər gözlərini göyün üzünə,
Quruyan ömrünə bulud axtarar.
Hər şeyə ikinci şansını verər,
İtirər... yenə də umud axtarar.

Hamının dərdini atar içinə,
Özünü atmağa yeri yox olar.
Ən böyük şəfanı göndər ay Allah,
Qadının canında ağrı çox olar.

Bəxtinin ən gözəl küncün itirib,
Düşən arzulardan gizlənə bilməz.
Getdiyi yollarda sellər oynayar,
Qadın ayaqları izlənə bilməz.

## Hərdən

Hərdən...
Ən gözəl günlərini buketləyib...
Qurutmaq istiyərsən.
Təravətini itirmiş xatirələr təqvimi..
Toy çiçəkləri kimi.
Hərdən...
Qaçqın gülüşlərin sahibi olarsan
İstifadəsi mümkün, saxlama müddəti az.
Hərdən...
Yaşamını itirər təkrarların
Sevdiyinin nəğməsi yaddasında çalınarsa...
Qurtuluş yolu kimi...
"Ayrılıq"adındakı bir mahnıdan asılarsan.
Hərdən...
Get, gəllər arasında yelləncəyə dönərsən.
Uzaqlarda gözləyənin olmasa da
Getməyə yolların olar.
Analı, atalı yetimliyin dərdinə...
Kimsəsizlik adından...
Sarılan qolların olar.
Hərdən...
Sadəcə özünü vurarsan...
Çarəsizliyinin sağlığına!

## Bir qız vardı uzaqlarda...

Bir qız vardı uzaqlarda...
Saçı sarı, özü sarı.
Bir qız vardı uzaqlarda...
Çin olmazdı yuxuları.

Bir qız vardı uzaqlarda...
Üzü-gözü gümüşdü.
Göz yaşları nar ləkəsi,
Bir dodaqlıq gülüşdü.

Bir qız vardı uzaqlarda...
Gözü-könlü tox idi.
İnsanları çox-çox az...
Adamları yox idi!

Bir qız vardı uzaqlarda...
Pəncərədən boylanan.
Gözü küçə adamı...
Baxışları hoylanan.

Bir qız vardı uzaqlarda...
Baxmağa doymadığım.
Tanımaq istədiyim,
Adını qoymadığım.

## Anamin şəkli...

Tanıdı, tanımadı kimsə ölüb deyəndə
Səsli rəhmət diləyib, səssizcə dolur anam.
Rəngli fotoşəkildir, günəş düşür ?st?nə...
Özündən də xəbərsiz ağ-qara olur anam.

Bir vaxt evin içində uşaq yelləyirdi O!
İndi uşaqdan betər yatır evimizdədir.
Gələn onu soruşur, gedən ondan danışır...
Ən gözəl dua kimi adi dilimizdədir.

Bizdə gülüş azalar, boşqabda yemək dadı
Ütülü köynəklərin xətləri ikiləşər.
Ana əli dəyməyən evdə yetim kimidir!
Həyat belə başlayarak, hər şey belə dəyişər.

## SƏHƏRİ AÇIRAM GÜLÜŞLƏRİNLƏ

Səhəri açıram gülüşlərinlə,
Gecələr gözünün qarasındadır.
Sən harda olursan ol, mənim üçün,
Yaşamaq dünyanın orasındadır.

İtmişdim işığı tapdım gözündə,
Olumsan, ölümsən duya bilmirəm.
Tanrının ən gözəl yaratdığısan.
Sənə hec bir adı qoya bilmirəm.

Bütün sevənlərə hökm edən gücüm,
Bu eşqin önündə qolu bağlıdır.
İstəsən ömrümün dar ağacı ol,
Səndən asılmaq da etibarlıdır.

Gedişin ömrümün payızı olar.
Payızdan heç yaza yamaq olarmı?
Mənim ürəyimin sahibi sənsən,
Evin yiyəsindən qonaq olarmı? .

Səhəri açıram gülüşlərinlə,
Gecələr gözünün qarasındadır.
Sən harda olursan ol, mənim üçün,
Yaşamaq dünyanın orasındadır.